**Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin 2022-ci ilin I yarımili ərzində gördüyü işlərə dair**

# H E S A B A T

Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı və torpaq münasibətlərinin tənzimlənməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin icrası 2022-ci ilin I yarımili ərzində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılmış, Xidmətin fəaliyyət sahələri üzrə işlər aşağıdakı istiqamətlərdə davam etdirilmişdir:

## I. Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrin aparılması sahəsində

2022-ci ilin 6 ayı ərzində muxtar respublika üzrə 1300 torpaq sahəsi, 53 qeyri-yaşayış binası, 48 qeyri-yaşayış sahəsi, 782 mənzil, 1364 fərdi yaşayış evi, 10 bağ evi, 8 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 3565 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət reyestrində qeydiyyata alınmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı 3,5% artmışdır.

48 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 30 ailə təsərrüfatının icarəsinə verilmiş 7,34 ha torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

6 ay ərzində hüquqların yüklülüyü haqqında daşınmaz əmlakın dövlət reyestrindən 507 çıxarış hazırlanmış, 166 əmlaka dair yüklülükdən azad olunma, 72 əmlak üzərində hüquqların məhdudlaşdırılması, 9 əmlak üzərində hüquqların məhdudlaşdırılmasının ləğvi, 75 ipoteka kağızının qeydiyyatı, 84 ipoteka kağızının əlavə qeydiyyatı, 10 ipoteka kağızının qeydiyyatının ləğvi əməliyyatları və tutmanın əmlaka yönəldilməsinə dair 6 bildirişin qeydiyyatı aparılmışdır. Məhdudiyyət və yüklülüyə dair 3059 arayış verilmiş, müvafiq sahə üzrə 203 sorğu-məktub, 22 elektron məktub cavablandırılmışdır. Vətəndaşın adına daşınmaz əmlakın olub-olmamasına dair 885 arayış hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Hesabat dövründə mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün 8596 ərizə qəbul edilmişdir.

Təsdiq olunmuş qrafik əsasında muxtar respublika üzrə 45 yaşayış məntəqəsində vətəndaşlara səyyar xidmət göstərilmişdir.

## II. Daşınmaz əmlakın inventarlaşdırılması və qiymətləndirilməsi sahəsində

2022-ci ilin I yarımili ərzində Xidmətin müvafiq sektoru və yerli qurumları tərəfindən hazırlanmış 3080 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilmişdir.

Daxil olmuş müraciətlər əsasında 1014 əmlaka dair texniki pasport, 1532 torpaq sahəsinə dair plan-ölçü, ümumilikdə, 2546 texniki sənəd hazırlanmışdır. Dövlət qeydiyyatına alınacaq əmlaklara texniki sənədlərin hazırlanması məqsədi ilə 1011 əmlaka yerində baxış keçirilərək müayinə aktı tərtib edilmişdir. Əmlakların bölünməsi və birləşməsi zamanı əməliyyatların natura və kameral şəraitdə düzgün aparılmasına nəzarətin təşkili məqsədi ilə 6 ay ərzində 242 əmlaka bölünmə və birləşmə planı tərtib olunmuş, bölünmə və birləşmələr maraqlı tərəflərin iştirakı ilə yerlərdə mərz nişanları bərkidilməklə icra olunmuşdur.

Əmlakların real bazar dəyərinə uyğun qiymətləndirilməsi ilə əlaqədar Xidmətə, şəhər və rayon idarələrinə (şöbələrinə) daxil olmuş müraciətlərə əsasən 146 əmlak qiymətləndirilmiş, müvafiq hesabat və rəylər tərtib olunaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Hesabat dövründə 1010 əmlakın bazar dəyəri məlumat bazasına daxil edilmişdir.

## III.Ünvan reyestrinin aparılması sahəsində

2022-ci ilin I yarımili ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 175 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Ünvan xəritəsində yeni ünvanların qeydiyyatı aparılmışdır.

Hesabat dövründə 271 daşınmaz əmlak obyektinin ünvanında düzəliş edilmişdir. 275 ünvan arayışı hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Naxçıvan şəhərində yerləşən çoxmərtəbəli yaşayış binalarının girişləri və giriş nömrələri, çoxmərtəbəli və qeyri-yaşayış binalarının tərkibindəki qeyri-yaşayış sahələrinin sayı və adı dəqiqləşdirilərək nömrələnmişdir. Əliabad qəsəbəsində daşınmaz əmlak obyektlərinin ünvanlarındakı mövcud uyğunsuzluqların aradan qaldırılması üçün dəqiqləşmə işləri aparılmışdır.

Naxçıvan şəhərinin 54-cü, 56-cı, Xətai və Əlincə məhəllələrində sənaye üsulu ilə hazırlanmış 2400-dən artıq ünvan lövhəsi və giriş nömrə nişanının quraşdırılması başa çatdırılmışdır.

Sədərək rayonunun Heydərabad, Kəngərli rayonunun Qıvraq qəsəbələrinin ünvan xəritələri və nəqliyyat infrastrukturu obyektlərinin sxematik planları hazırlanaraq müvafiq rayon icra hakimiyyətləri tərəfindən təsdiq edilmiş, ünvan reyestrinə əlavə olunmuşdur.

Naxçıvan şəhərinin ünvan xəritəsi rəqəmsallaşdırılmışdır.

## IV. Torpaq məsələləri sahəsində

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar Şahbuz rayonunun Kolanı, Babək rayonunun Aşağı Buzqov və Yuxarı Buzqov bələdiyyələri ərazisində torpaqların qida maddələri ilə təmin olunma kartoqramlarının yenilənməsi üçün işçi planları hazırlanaraq "Araz" Elm-İstehsalat Birliyinə təqdim edilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq Şərur, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonlarında meyvə bağları və yaşıllıq zolaqlarına dair məlumatlar dəqiqləşdirilərək Torpaqların elektron kadastr uçotu informasiya sisteminə daxil edilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı”na uyğun olaraq Babək və Sədərək rayonlarının sərhədləri daxilində əkin dövriyyəsindən kənarda qalmış torpaqların əhatə etdiyi ərazilərin xəritələri hazırlanaraq Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinə və müvafiq rayon icra hakimiyyətlərinə təqdim edilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun olaraq Şahbuz rayonunun Daylaqlı, Ordubad rayonunun Dəstə kəndlərində və Kəngərli rayonunun Qıvraq qəsəbəsində Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və rayon icra hakimiyyətləri ilə birlikdə bələdiyyə üzvlərinin, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Kənd təsərrüfatı təyinatlı torpaqlar, onların tərkibi və məqsədli istifadəsinə dair 250 maarifləndirici broşür nəşr edilmiş, keçirlmiş tədbirlərdə 135 broşür iştirakçılara təqdim olunmuşdur.

“Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”na uyğun olaraq ailə təsərrüfatlarında əkin atlaslarına uyğun əkinlərin keçirilməsinə nail olunması, torpaqlardan səmərəli istifadə edilməsi məqsədilə Babək Culfa, Ordubad, Şahbuz və Kəngərli rayonlarında bələdiyyə sədrlərinin, ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları ilə birlikdə Sədərək rayonunda bələdiyyə torpaqlarının icarəyə verilməsi ilə bağlı maarifləndirici tədbir keçirilmişdir.

Xidmətin, Şərur Rayon İcra Hakimiyyətinin və Şərur Rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə rayonun İbadulla, Qışlaqabbas, Vərməziyar, Tumaslı, Tənənəm və Xanlıqlar kəndlərində torpaq mülkiyyətçiləri, istifadəçiləri, icarəçiləri ilə torpaqlardan təyinatına uyğun, səmərəli istifadə olunmasına və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı maarifləndirici görüş keçirilmişdir.

Muxtar respublikanın bütün ərazi vahidləri üzrə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə əkin dövriyyəsindən kənarda qalan, istifadə olunmayan əkinəyararlı torpaq sahələrinin monitorinqi aparılmış və uçotu dəqiqləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 17.05.2021-ci il tarixli Sərəncamı ilə bələdiyyələr tərəfindən yerli vergi ödənişlərinin, icarə haqlarının

toplanması vəziyyətinin yoxlanılması və bu sahədə nəzarətin gücləndirilməsi məqsədilə işçi qrupun tərkibində Xidmətin əməkdaşı Naxçıvan şəhərində, Ordubad, Şabuz, Kəngərli və Sədərək rayonlarında yoxlamalarda iştirak etmişdir.

Torpaq sahələrinin ayrılması, mülkiyyət növünün və kateqoriyasının dəyişdirilməsi ilə bağlı müraciətlər qanunvericiliyə müvafiq araşdırılmış və rəylər hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasında ümumi və suvarılan torpaqların torpaq mülkiyyətçiləri, istifadəçiləri arasında bölüşdürülməsi və torpaqlardan istifadə edilməsinə dair 01 yanvar 2022-ci il tarixə torpaq balansı tərtib edilərək Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 17 fevral 2022-ci il tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Torpaq sahələrinin uçotunun dəqiqləşdirilməsi məqsədilə Sədərək rayon inzibati ərazi vahidi və Şərur rayonun Küçülü, Kürkənd, Maxta və Qorçulu kəndləri üzrə dövlət və bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı yerləri (uqodiyaları), nəqliyyat, kommunikasiya xətləri, kanal və kollektorlar, mövcud meşə və meşə zolaqlarının əhatə etdiyi ərazilər müəyyənləşdirilmiş və rəqəmsal kadastr xəritəsinə daxil edilmişdir.

Şəhər və rayon idarələri (şöbələri) tərəfindən torpaqların elektron kadastr uçotu informasiya sistemində torpaq sahələri üzərində aparılan hər bir kadastr əməliyyatı ekspertiza olunmuş, yoxlanılaraq sistemə qəbul edilmişdir. Rəqəmsal xəritəyə ümumi nəzarət həyata keçirilmişdir.

518 torpaq sahəsinin planı və ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

I yarımil ərzində torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun 13, Kəngərli rayonunun 1 və Şahbuz rayonunun 7 yaşayış məntəqəsinin ərazisində monitorinqlər başa çatdırılmış müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində iş aparılmışdır.

Cari ilin ilk 6 ayı ərzində torpaq məsələləri ilə əlaqədar daxil olmuş 139 şifahi, 33 yazılı, 8 elektron müraciət araşdırılaraq müvafiq qanunvericiliyə uyğun cavablandırılmışdır.

## V. İnformasiya texnologiyalarının tətbiqi və məlumat bazasının təkmilləşdirilməsi sahəsində

Torpaqların elektron kadastr uçotu informasiya sisteminin fəaliyyətini təmin edən proqram təminatı vasitəsilə torpaq sahələri üzərində kadastr əməliyyatlarının aparılması, sistemin funksionallıqlarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Ekspertə daxil olan əməliyyatlar barədə sistem tərəfindən bildiriş verilməsi təmin olunmuşdur. Sistemə atribut cədvəlində seçilmiş torpaq sahələrinin eksport olunması, torpaq sahələrinin hazırlanmış proqram əlavəsi vasitəsilə “nəzarət

və monitorinq” moduluna daxil edilməsi funksionallığı əlavə olunmuşdur. Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində kadastr əməliyyatlarının aparılması funksionallığında və rəqəmsal kadastr xəritəsində aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır. Təbii antropogen və texnogen amillərin təsiri ilə deqradasiyaya məruz qalan torpaq sahələrinin monitorinqinin nəticələri “Keyfiyyət Xarakteristikaları Xəritəsi”nə yerləşdirilmişdir. Sistemin daşınmaz əmlakın dövlət reyestrinə yenidən inteqrasiya olunması məqsədi ilə Əmlak Məsələləri Dövlət Xidmətinin və icraçı tərəfin mütəxəssisləri ilə müzakirə aparılmış, iş ardıcıllıqları müəyyənləşdirilmişdir.

Əmlak kalkulyatorunda təkmilləşdirmə işləri aparılaraq təsdiq olunmuş yeni dövlət rüsumlarına uyğun hesablama aparması təmin olunmuşdur.

Kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranmış hüquqlara dair 7240 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilmişdir.

Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən 573 müraciət daxil olmuş, daxil olan müraciətlər qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə elektron xidmətlərdən daxil olan müraciətlərin sayı 2,3% artmışdır.

Kompüter və internet şəbəkəsinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə informasiya infrastrukturunda quraşdırılmış avadanlıqaların lisenziyaları yenilənmişdir.

6 ay ərzində İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə 130 məktub daxil olmuş, 97 məktub göndərilmişdir. Xidmətin elektron poçtuna 9 məktub daxil olmuş, 5 məktub göndərilmişdir. Daxil olmuş 227 sorğu-məktubun cavablandırılması üçün məlumat bazasında araşdırma aparılmış, məlumatlar aidiyyəti üzrə təqdim olunmuşdur.

I yarımil ərzində hüquqların dövlət qeydiyyatına alınması üçün daxil olan sənədlərdə göstərilən məlumatların elektron məlumat bazasında olan məlumatlarla uyğunluğu yoxlanılaraq müvafiq qeydlər aparılmış, Xidmətin müvafiq struktur bölmələrinə müxtəlif növ məlumatlar hazırlanaraq təqdim olunmuşdur.

## VI. Ümumi işlər sahəsində

2022-ci ilin 6 ayı ərzində 139-u elektron olmaqla 607 məktub daxil olmuşdur. Daxil olan məktublar icra üçün aid şöbə və sektorlara verilmiş, araşdırılaraq cavablandırılmışdır. 102-si elektron olmaqla 482 məktub göndərilmişdir.

6 ay ərzində 52 əmr hazırlanmışdır.

Yanvar və aprel aylarında daşınmaz əmlak və torpaq məsələri sahəsində görülmüş işlərin illik və rüblük müzakirəsi keçirilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Xidmətin yerli bölmələrinin əməkdaşlarının bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədi ilə “Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və

ünvan reyestrinin aparılması”, “Daşınmaz əmlakın elektron qeydiyyatı sistemindəki yeniliklərin tətbiqi”, “Torpaqların elektron kadastr uçotu informasiya sistemində torpaq sahələrinin müvafiq koordinat üzrə yığılması və bölgü planlarının tərtibi” mövzularında təlimlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi ilə bağlı sərəncamlarına uyğun olaraq Naxçıvan Dövlət Universitetində Xidmət tərəfindən “Yerquruluşu və kadastr” kabinəsi yaradılmış, müxtəlif məzmunlu və təyinatlı xəritələrin hazırlanması ilə bağlı açıq dərs keçirilmişdir.

Xidmət əməkdaşlarının və Xidmətin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin “Geodeziya və xəritəçəkmə”, “Yerquruluşu və daşınmaz əmlakın kadstrı” ixtisaslarında təhsil alan tələbələrin iştirakı ilə 3 ölçülü xəritələrin və naviqasiya sistemlərinin hazırlanması ilə bağlı təlim keçirilmiş, Naxçıvan Dövlət Universitetinin Geodeziya və xəritəçilik mühəndisliyi və Memarlıq ixtisasları üzrə IV kurs tələbələrinin Xidmətdə istehsalat təcrübəsi keçmələri təmin edilmişdir.

Xidmətin bir əməkdaşının İstanbul Texniki Universitetinin professor-müəllim heyəti tərəfindən keçirilən coğrafi informasiya sistemləri üzrə onlayn kursda iştirakı təmin olunmuşdur.

Xidmətin fəaliyyət istiqamətləri üzrə görülən işlərə dair 6 ay ərzində “Şərq qapısı” qəzetində 13, Azərbaycan Dövlət İnformasiya Agentliyində 12, “Nuhçıxan” İnformasiya Agentliyində 25, rayon (şəhər) qəzetlərində 26 yazı dərc etdirilmiş, Naxçıvan Dövlət Radiosunda 3 veriliş, Naxçıvan Televiziyası vasitəsi ilə 13 xəbər süjeti, 4 veriliş verilmiş, Xidmətin internet saytına 66 yazı yerləşdirilmişdir.

## VII. “Yerquruluşu, Geodeziya və Kartoqrafiya” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yerinə yetirilən işlər

Torpaqlardan istifadəyə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun 7, Şahbuz rayonunun 12, Culfa rayonunun 5 yaşayış məntəqəsinin həyətyanı torpaq sahələrinin yerquruluşu planları və mülkiyyətçilər haqqında məlumat hazırlanaraq aidiyyəti üzrə təhvil verilmişdir.

1:50000 miqyaslı topoqrafik xəritələrin tərtib olunması üçün məlumat bazasındakı 1:10000 miqyaslı topoqrafik xəritə materiallarından istifadə edilərək J-38-32-Q, J-38-32-V və J-38-31-Q nomenklaturalı planşetləri əhatə edən məlumatlar toplanmışdır.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Şərur Rayon Polis İdarəsinə 50, Babək Rayon Polis İdarəsinə 31, Ordubad Rayon Polis Şöbəsinə 76, Kəngərli Rayon Polis Şöbəsinə 15, Sədərək Rayon Polis Şöbəsinə 4, ümumilikdə, 176 dislokasiya xəritəsi hazırlanaraq aidiyyəti üzrə təhvil verilmişdir.

Culfa və Babək rayonları ərazisində bərk məişət tullantılarının idarə edilməsi üçün nəzərdə tutulan sahələrin planı, Naxçıvan şəhəri və muxtar respublikanın

rayonlarında yaz mövsümündə yeni salınacaq və bərpa olunacaq yaşıllıq sahələrinin planı hazırlanaraq aidiyyəti üzrə təhvil verilmişdir.

1:50000 miqyaslı topoqrafik xəritələr əsasında İlandağ geoparkının ərazisindəki tarix memarlıq abidələri, arxeoloji abidələr, nadir bitki və heyvanların yayılma arealı əks olunan xəritələr hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının sənaye və kənd təsərrüfatı müəssisələrinin xəritəsi və Naxçıvan Beynəlxalq Hava Limanının baş planı hazırlanaraq İqtisadiyyat Nazirliyinə, Naxçıvan Muxtar Respublikasının və Kəngərli rayonunun müxtəlifölçülü siyasi-inzibati xəritələri hazırlanaraq Mədəniyyət Nazirliyinə, Naxçıvan şəhərinin avtomobil yollarının xəritəsi və Naxçıvan şəhərinin ətraf kəndlərinin, rayon mərkəzlərinin, rayonların sərhəd daxili yollarının xəritələri hazırlanaraq Avtomobil Yolları Dövlət Agentliyinə, Dəmiryolu üzərində mühafizə olunan obyektlərin xəritəsi yenilənərək Naxçıvan Dəmiryolu Nəqliyyatında Xətt Polis Şöbəsinə, Naxçıvan Toxumçuluq Mərkəzinin istifadəsinə ayrılmış ərazinin planı hazırlanaraq "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxsə, Naxçıvan şəhəri və muxtar respublikanın rayonları üzrə seçilmiş ərazilərin xəritələri hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Statistika Komitəsinə, Tivi Su Elektrik Stansiyasından çəkiləcək elektrik xətlərinin koordinatları müəyyənləşdirilərək Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinə təhvil verilmişdir.

2022-ci ilin ilk altı ayı ərzində muxtar respublikanın 107 yaşayış məntəqəsində 220 vətəndaşın mülkiyyətində olan torpaq sahələri geodeziya-ölçü avadanlıqları vasitəsilə ölçülmüş, sərhədləri dəqiqləşdirilmişdir.